


Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Noyabr 2020

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

“İQTİSADİ CƏHƏTDƏN MÜSTƏQİL OLMASAYDIQ, BİZ SİYASİ MÜSTƏQİLLİK ƏLDƏ EDƏ BİLMƏZDİK. ”

**Prezident İlham Əliyevin**
Ağdam şəhərindəki çıxışı,
23 noyabr 2020



“Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır.

Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək”.



Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 10

2020-ci ilin yanvar-oktyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 379,1 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 14

Azexport.az portalına 2020-ci ilin yanvar-oktyabr aylarında 512,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 16

2020-ci ilin noyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 16,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2020-ci ilin **yanvar-oktyabr ayları** ərzində qeyri-neft sektoru üzrə **1,4 milyard** ABŞ dolları dəyərində mal **ixrac olunmuşdur**

2020-ci ilin **oktyabr ayında** qeyri-neft sektoru üzrə ixrac **162,8 milyon** ABŞ dolları təşkil etmişdir

2020-ci ilin on ayı ərzində Azərbaycandan 12,2 milyard ABŞ dolları, o cümlədən qeyri-neft sektoru üzrə **1,4 milyard** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb.

Bu ilin yanvar-oktyabr ayları ərzində Rusiyaya **550,6 milyon**, Türkiyəyə **285,5 milyon**, İsveçrəyə **176 milyon**, Gürcüstana **109,1 milyon** və Çinə **34,7 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2020-ci ilin yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor 173 milyon ABŞ dolları) birinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 158,7 milyon ABŞ dolları) ikinci və pambıq mahlıcı (94,7 milyon ABŞ dolları) üçüncü olub.

2020-ci ilin 10 ayı ərzində meyvə-tərəvəz ixracı **467,3 milyon**, pambıq lifi ixracı **95,8 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **86,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **70 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **42,9 milyon**, pambıq ipliyi ixracı **13,6 milyon**, spirtli və spirtsiz içkilərin ixracı **9,7 milyon**, şəkər ixracı **16,8 milyon**, bitki və heyvan mənşəli

piylər və yağlar ixracı **19,2 milyon**, çay ixracı **7,7 milyon** ABŞ dolları təşkil edib.

2020-ci ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixrac isə 162,8 milyon ABŞ dolları təşkil edib. 2020-ci ilin oktyabr ayında qeyri-neft sektorunda yeyinti məhsullarının payı 48,8 faiz, qeyri-yeyinti sektoru üzrə isə 51,2 faiz təşkil edib.

Bu ilin oktyabr ayında qeyri neft-qaz məhsulları üzrə ən çox mal Rusiyaya (64,7 milyon ABŞ dolları), Türkiyəyə (33,5 milyon ABŞ dolları), İsveçrəyə (10,7 milyon ABŞ dolları), Gürcüstana (9,5 milyon ABŞ dolları) və ABŞ-a (5,4 milyon ABŞ dolları) ixrac edilib.

2020-ci ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracda xurma (19,7 milyon) birinci, qabığı təmizlənmiş meşə fındığı (17 milyon ABŞ dolları) ikinci, sair təzə meyvələr – (13,6 milyon ABŞ dolları ) üçüncü yerdə qərarlaşıb.

MADE IN AZERBAIJAN

# 2020-Cİ İLİN **yanvar-oktyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi**
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI NOYABR



# 2020-Cİ İLİN **oktyabr ayında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI NOYABR



# 2020-Cİ İLİN **yanvar-oktyabr aylarında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2020 İXRAC İCMALI NOYABR

**Tomat (pomidor)**
2020: 173 | 2019: 147,6



**Pambıq mahlıcı**
2020: 158,7 | 2019: 142,1



**Qızıl**
2020: 94,7 | 2019: 90,5



**Fındıq ləpəsi**
2020: 84,4 | 2019: 100,1



**Elektrik enerjisi**
2020: 56,8 | 2019: 62,9



2020: 54,5 | 2019: 57,1



**İlkin formalı polipropilen**

2020: 48,7 | 2019: 42,2



**Albalı və gilas**

2020: 42,3 | 2019: 59,8



**Metanol**

2020: 40 | 2019: 52,4



**Emal olunmamış aşqarlanmamış alüminium**

2020: 691,3 | 2019: 818,2



**Digər**

# 2020-Cİ İLİN **oktyabr ayında** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# Yanvar - oktyabr aylarında ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

## 2019

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerji | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (Pomidor) | 24,2 |
| May | Tomat (Pomidor) | 54,6 |
| İyun | Tomat (Pomidor) | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |
| Oktyabr | Xurma | 27,1 |

## 2020

| Ay | Mal | Məbləğ |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (Pomidor) | 29,4 |
| May | Tomat (Pomidor) | 49,7 |
| İyun | Tomat (Pomidor) | 39,2 |
| İyul | Albalı və gilas | 16,4 |
| Avqust | Qızıl | 28 |
| Sentyabr | Qızıl | 25,8 |
| Oktyabr | Xurma | 19,7 |

2

# 2020-Cİ İLİN YANVAR-OKTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

Bu ilin yanvar-oktyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Land Lojistic" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Sun Food" MMC, "Global Trade Group" MMC, "Fruit Store" MMC, "Baku Steel Company", “Aqrovest" MMC və "Fruit City Group" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, “Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti və “Kaspian Drilinq Kompani Limited" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2020-Cİ İLİN **yanvar-oktyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2020-Cİ İLİN **yanvar-oktyabr aylarında** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **dövlətə məxsus ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**






## 2020-Cİ İLİN **yanvar-oktyabr aylarında "Azərkosmos" ASC 37,8 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



2020-ci ilin yanvar-oktyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **30 ölkəsinə 37,8 milyon** ABŞ dolları xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil edib.

2020-ci ilin oktyabr ayında isə "Azərkosmos" ASC dünyanın **21 ölkəsinə 6,9 milyon** ABŞ dolları dəyərində xidmət ixrac edib.

2020-ci ildə"Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**





# **2020-ci ilin yanvar-oktyabr aylarında** Azərbaycana gələn xaricilər **bank kartları vasitəsi ilə** **379,1 milyon** manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-oktyabr aylarında Azərbaycana dünyanın 155 ölkəsindən 720,3 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,7 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Koronovirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması cari ilin aprel-oktyabr aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb olub və səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilib.

2020-ci ilin oktyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 24,9 milyon manat təşkil edib. 2020-ci ilin yanvar-oktyabr ayında isə əcnəbilər bank kartları vasitəsi ilə 379,1 milyon manatlıq əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

## AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN
## **bank kartları vasitəsi ilə** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

2020 İXRAC İCMALI NOYABR

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Yanvar | **99,8** | **88,3** | **85,2** |
| Fevral | **91,1** | **85,3** | **72,9** |
| Mart | **105,8** | **98,0** | **53,9** |
| Aprel | **109,7** | **103,2** | **19,7** |
| May | **107,3** | **100,9** | **24,3** |
| Iyun | **106,7** | **115,1** | **23,7** |
| Iyul | **126,3** | **134,6** | **23,0** |
| Avqust | **141** | **137,4** | **25,6** |
| Sentyabr | **114,6** | **106,2** | **25,9** |
| Oktyabr | **117** | **104,7** | **24,9** |
| CƏMİ | **1119,3** | **1073,8** | **379,1** |

3

# AZEXPORT.AZ PORTALINA 2020-CI ILİN YANVAR-OKTYABR AYLARINDA 512,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **2,9 milyard** ABŞ dolları təşkil etmişdir

Azexport.az portalına **512,2 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olub və ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 10 ayında portal daxil olan ixrac sifarişləri dəyər baxımından **7,3 faiz** artıb.

2020-ci ilin oktyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri 49,8 milyon ABŞ dolları təşkil edib və ötən ilin müvafiq ayı ilə müqayisədə ixrac sifarişləri dəyər baxımından 21,5 faiz artıb. Cari ilin oktyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi toyuq əti və yumurtası, pambıq yağı, fındıq, tütün, çay, günəbaxan yağı, alma, şərab, qənnadı məhsulu, ketçup, nar, armud, kosmetik vasitə mühərrik yağı, bal, boya, zəfəran, tibbi zəli və s. mallara daxil olub. 2017-ci ilin yanvar ayından 2020-ci ilin 31 oktyabr tarixinə kimi (46 ay ərzində) Azexport.az portalına dünyanın **142 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **2,9 milyard** ABŞ dolları təşkil edib.

# **Azexport.az** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**

2020 İXRAC İCMALI NOYABR




Yanvar - **42,1**
Fevral - **60,8**
Mart - **44,8**
Aprel - **61,5**
May - **64,7**
İyun - **45,6**
İyul - **55,0**
Avqust - **54,9**
Sentyabr - **33,0**
Oktyabr - **49,8**

| 2017-ci il | 2018-ci il | 2019-cu il | 2020-ci il |
|---|---|---|---|
| **cəmi - 475** | **cəmi - 514,1** | **cəmi - 595,7** | **cəmi - 512,2** |



Son **46 ay** ərzindəki sifarişlərin cəmi - **2 097**

# 2020-Cİ İLİN **oktyabr ayında Azexport.az** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



Toyuq əti və yumurtası



Pambıq yağı



Fındıq



Tütün



Çay



Günəbaxan yağı



Alma



Şərab



Qənnadı məhsulu



Bal



Nar



Armud



Kosmetik vasitə



Mühərrik yağı



Ketçup



# 4

# 2020-Cİ İLİN NOYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 16,7 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2020-ci ilin noyabr ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 133 dəfə müraciət daxil olunub. Ümumilikdə 153 ədəd sertifikat (89 ədəd mənşə, 42 ədəd baytarlıq, 13 ədəd Qida təhlükəsizliyi sertifikatı, 8 ədəd CİTES, 1 ədəd razılıq məktubu) verilib.

Cari ilin noyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 16,7 (16,726,405.07) milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metallar, nar, alma, albalı, portağal şirələri, narşərab, çay, boranı cemi, bitki, zeytun və günəbaxan yağları, kolbasa, sosiska, xiyar, pomidor, kələm turşusu, badımcan kürüsü, mürəbbə, biyan kökü, tibbi zəli, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların əti və kürüsü, pendir, təbii bal, duzlanmış qoyun bağırsağı, dondurulmuş Xəzər kilkəsi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan mədəsi, pikellənmiş mal dərisi, oksigen maye qazı, polad armatur yayması, polad boru, polad kvadrat pəstah, polad məftil, televizor monitoru, dini təyinatlı kitab, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar (67,2%), polad armatur yayması (14,5%), günəbaxan yağları (6,1%), pendir (4,7%), meyvə şirələrinin (2,3%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar ölkəyə- İsveçrə (67,2%), Rusiya (11,1%), Gürcüstan (8,6%), İraq (5,7%), Türkiyə (4,6%), digər ölkələrə (2,8%)- (ABŞ, Almaniya, Honq-Konq, Çin, Dubay, Yaponiya, BƏƏ, Ukrayna, Özbəkistan, Qazaxıstan, Polşa, Litva, Kanada, Avstraliya, Myanma) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (66,8%), avtomobil ilə (28,8%), dəmiryolu nəqliyyatı (3,4%), qarışıq nəqliyyat növləri ilə ixracı isə (1%) təşkil edir.

İxrac statistikasına nəzər yetirdikdə 2019-cu ilin noyabr ayı ilə müqayisədə ixracda **4,5 milyon** ABŞ dolları dəyərində artım müşahidə olunmuşdur.

# 2020-Cİ İLİN **noyabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi** VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN **ixracın statistikası (milyon ABŞ dolları ilə)**






# CARİ İLİN **NOYABR AYINDA** "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ** BÖLGÜSÜ (%)

İSVEÇRƏ
**67,2%**

RUSİYA
**11,1%**

GÜRCÜSTAN
**8,6%**




İRAQ
**5,7%**

TÜRKİYƏ
**4,6%**

# CARI İLİN NOYABR AYINDA **"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
# ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ



## CARI İLİN NOYABR AYINDA **“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi** vasitəsilə **İxrac edilən məhsulların NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
## "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

